"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanına əsasən və Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli 8 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 1, maddə 29, № 4, maddə 287; 2011, № 3, maddə 230, № 11, maddə 1069; 2012, № 4, maddə 387) ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat səviyyəsi ixtisaslarının (proqramlarının) Təsnifatı"nın "6. Texniki və texnoloji ixtisaslar qrupu" bölməsində "Dəniz texnikası və texnologiyası mühəndisliyi" sözləri "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi sözləri ilə, "Dəniz texnikası və avadanlıqlarının istismarı mühəndisliyi" sözləri "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" sözləri ilə, "Gəmiçilik və gəmilərin hərəkətinin idarə edilməsi" sözləri "Dəniz naviqasiyası mühəndisliyi" sözləri ilə əvəz edilsin.

***Azərbaycan Respublikasının***

***Baş naziri Artur Rasi-zadə***

***Bakı şəhəri, 6 avqust 2012-ci il***

***№ 175***